

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 201 (21.611)

*25 oktyabr 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin oktyabrın 24-də rəsmi qarşılanma mərasimi olub.

* * *

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək görüşü olub.

Görüşdə ikitərəfli və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə geniş tərkibdə görüşü olub.

* * *

Oktyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç mətbuata bəyanatlarla çıxış ediblər.



## Heydər Əliyev lektoriyasının növbəti məşğələsi

***Naxçıvan Tibb Kollecində keçirilən Heydər Əliyev lektoriyasının növbəti məşğələsi "Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda olub.***

Məşğələni giriş sözü ilə kollecin direktoru Sona Məmmədova açaraq bildirib ki, Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul olunsa da, Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra əldə edib. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirib. Məhz ümummilli liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükələrdən qurtarıb. Ulu öndər ölkədə hökm sürən xaos və anarxiyanı, cəmiyyətdəki iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırıb, müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf dövrünə qədəm qoyub.

Vurğulanıb ki, müstəqillik illərində bütün sahələrdə olduğu kimi, səhiyyədə aparılan islahatlar da öz bəhrələrini verib, ölkəmizdə, eləcə də muxtar respublikamızda bu sahədə böyük nailiyyətlər əldə edilib. Bütün bu uğurlar dahi rəhbərin ideyalarının bəhrələridir.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyevin mövzu ilə bağlı məruzəsi dinlənilib. Məruzədə qeyd edilib ki, azadlıq, müstəqillik xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da mürəkkəb və çətin məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur.

Xalqların və millətlərin taleyində, formalaşmasında, dünyadakı yerinin müəyyənləşdirilməsində tarixi şəxsiyyətlərin, dahi siyasətçilərin və müdrik dövlət başçılarının müstəsna rolunun danılmaz olduğunu söyləyən Emin Şıxəliyev qeyd edib ki, bəşəriyyətin yetirdiyi ulu öndər Heydər Əliyev kimi nadir dühalar özləri bütöv bir salnamə, tarix yaratmağa qadir olurlar. Görkəmli dövlət xadiminin çoxşaxəli fəaliyyəti, Vətən və xalq qarşısındakı misilsiz xidmətləri dahi şəxsiyyətlərin tarixin gedişində həlledici rol oynadıqlarını əyani şəkildə təsdiqləyən dəyərli nümunələrdəndir.

Sonra kollecin tələbələri ümummilli liderimizin həyatı və müstəqil Azərbaycan uğrunda yorulmaz fəaliyyətindən bəhs edən sənədli filmə baxıblar.

## Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının X konfransı keçirilib

Konfransda hesabat məruzəsi ilə çıxış edən təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov bildirib ki, 7 fevral 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin iştirakı ilə təsis olunan Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı ötən dövrdə böyük inkişaf yolu keçib. Hərtərəfli qayğı ilə əhatə olunan rayon təşkilatı üçün müasir tələblərə cavab verən inzibati bina inşa edilib. Rayonun Yaycı, Ərəzin, Əbrəqunus, Kırna, Qızılca, Xanəgah, Əlincə, Saltaq, Milax, Ərəfsə, Ləkətağ, Teyvaz, Gal, Şurud, Gülüstan Kənd mərkəzlərində partiyanın ilk təşkilatları üçün hərtərəfli şəraiti olan iş otaqları ayrılıb.



Vurğulanıb ki, rayon təşkilatı yarandığı vaxtdan bu günədək 9 konfrans keçirib. 27 may 2013-cü il tarixdə keçirilən IX konfransdan sonra təşkilatın sıraları daha da genişlənib. Bu dövrdə 380 nəfər partiya sıralarına qəbul olunub.

Hazırda rayon üzrə Yeni Azərbaycan Partiyası üzvlərinin 1825 nəfəri gənclərdir. Rayon təşkilatı partiyaya qəbul zamanı sağlam əqidəli, dövlətçiliyimizə sədaqətli gənclərə üstünlük verir, rayonun ictimai-siyasi, iqtisadi həyatında, keçirilən tədbirlərdə onların fəal iştirakına şərait yaradır. Hesabat dövründə partiya sıralarına qəbul edilənlərin 286 nəfərini və yaxud 75,3 faizini gənclər təşkil edib.

Rayon təşkilatının Gənclər Birliyi hesabat dövründə rayon Gənclər və İdman İdarəsi, Təhsil, Mədəniyyət və Turizm şöbələri ilə birlikdə gənclər arasında müxtəlif idman yarışları, müsabiqələr, mədəni-kütləvi tədbirlər keçirib.

"Culfa rayonunun ictimai-siyasi həyatında təşkilatın Qadınlar Şurasının fəaliyyəti getdikcə güclənir. Rayon üzrə Yeni Azərbaycan Partiyasının üzvü olan qadınların sayı 2551 nəfərdir", – deyən Qadir İbrahimov diqqətə çatdırıb ki, IX konfransdan ötən müddət ərzində təşkilatın tərkibi keyfiyyət və kəmiyyətcə xeyli yüksəlib. Belə ki, fəaliyyət sahələrinə görə partiya üzvlərinin 1315 nəfəri təhsil, 332 nəfəri səhiyyə, 298 nəfəri mədəniyyət, 140 nəfəri idarəetmə, 3271 nəfəri sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə və digər sahələrdə çalışırlar.

Qeyd olunub ki, hesabat dövründə keçirilən prezident, bələdiyyə, parlament seçkilərində, 26 sentyabr 2016-cı ildə keçirilən referendumda Yeni Azərbaycan Partiyasının üzvləri fəallıqları ilə seçiliblər.

Məruzə ətrafında çıxışlar olub.

Konfransda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov bildirib ki, partiyanın Culfa Rayon Təşkilatının yaranması, formalaşması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. 7 fevral 1993-cü il tarixdə ulu öndərin iştirakı ilə təsis edilən Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının partiya və milli dövlətçiliyimizin tarixində olduqca əhəmiyyətli yeri məhz bu amillə bağlıdır. Bu gün özünün X konfransını keçirən partiya təşkilatı, bütövlükdə, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 10 faizdən çoxunu təşkil edir və rayonun ictimai-siyasi həyatında xüsusi yerə malikdir.

Hesabat dövrü ərzində Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun partiya təşkilatları qarşısında qoyduğu tapşırıqlardan bəhs edən icra katibi deyib ki, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı bu tapşırıqların yerinə yetirilməsində fəallıq göstərib.

Anar İbrahimov Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının yeni seçiləcək heyətinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib.

Qadir İbrahimov yenidən Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının sədri, 21 nəfərdən ibarət şura seçilib.

Konfransdan sonra şura ilk iclasını keçirib. İclasda nəzarət-təftiş komissiyası, Qadınlar Şurası, Gənclər Birliyi və 11 nəfərdən ibarət idarə heyəti seçilib.

**Xəbərlər şöbəsi**

## Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının əməkdaşları Naxçıvanın mədəniyyət və elm müəssisələri, yerli istehsal məhsulları ilə tanış olublar



***Oktyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və akademiyanın bir qrup əməkdaşı Naxçıvan Muxtar Respublikasına səfərə gəliblər.***

Qonaqlar əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər. Məlumat verilib ki, bu muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılıb və həmin il mayın 10-da fəaliyyətə başlayıb. Ulu öndərin sağlığında yaradılan muzeydə görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar toplanılıb. Hər il minlərlə tamaşaçı muzeyi ziyarət edir.

Sonra qonaqlar Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və bölmənin tərkibində fəaliyyət göstərən, nadir bitkilərin və ağacların qorunduğu "Nəbatat bağı" ilə tanış olublar.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanışlıq zamanı bildirilib ki, muxtar respublikanın ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Buna görə də ərazidə tarixin bütün dövrlərinə aid zəngin mədəniyyət və memarlıq nümunələri mövcuddur. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tariximədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb. Kompleks çoxsaylı turistləri özünə cəlb etməklə yanaşı, həm də son dövrlərdə mədəni-kütləvi tədbirlərin keçirildiyi mərkəzə çevrilib.

Günün sonuna doğru qonaqlar yerli məhsulların nümayiş etdirildiyi Naxçıvan Biznes Mərkəzində olublar. Məlumat verilib ki, mərkəzdə kərpicdən mebel dəstinə, kiçik plastik hissələrdən dam örtüyünə, mineral sulardan ərzaq məhsullarına, Naxçıvan duzundan konservləşdirilmiş qovurmaya qədər bir çox çeşiddə yerli məhsullar sərgilənir. Mərkəz eyni zamanda yerli sahibkarların fəaliyyətinin stimullaşdırılmasında, onlara müxtəlif metodik köməkliklərin göstərilməsində əhəmiyyətli rol oynayır.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorunun və akademiyanın əməkdaşlarının Naxçıvan Muxtar Respublikasına səfəri bu gün də davam edəcək.

# Naxçıvanda turizmin inkişafı diqqət mərkəzindədir

## *Turizm müşavirəsində qarşıya qoyulan vəzifələr icra olunur*

***Bu il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi" ilə bağlı müşavirə keçirilmiş, aid təşkilatlar qarşısında mühüm vəzifələr qoyulmuşdur. Verilən tapşırıqların icrası məqsədilə tədbirlər planı hazırlanmış, turizmin inkişafı məqsədilə mühüm işlər görülmüşdür.***

Muxtar respublikanın turizm potensialını təbliğ edən elektron resursların hazırlanması və internetdə yerləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən 91 dövlət orqanının saytında Naxçıvan portalının və Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytının bannerləri yerləşdirilmiş və keçidlər verilmişdir. Bundan əlavə, muxtar respublikanın turizm potensialını təbliğ edən elektron resursların internetdə yerləşdirilməsini və bu məlumatların daim yenilənməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində Turizm İnformasiya Mərkəzinin əməkdaşları üçün seminar təşkil olunmuşdur. Hesabat dövründə Naxçıvan Turizm İnformasiya Mərkəzinin internet səhifəsi 3 dildə – Azərbaycan, rus və ingilis dillərində yenidən işlənmiş, muxtar respublikanın turizm imkanlarını əks etdirən materiallarla zənginləşdirilmişdir.

Naxçıvanda müalicə turizmi üçün geniş imkanlar vardır. Bu sahədə reklam-informasiya materiallarının hazırlanması və təbliği mühüm əhəmiyyət daşıyır. Muxtar respublikanın müalicə turizmi ilə bağlı Naxçıvan televiziyasında məlumat verilmiş, Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Naftalan və onun müalicəvi əhəmiyyətləri" mövzusunda seminar keçirilmişdir.

Səfər etdikləri yerlərdə turistlərin diqqətini daha çox cəlb edən sahələrdən biri də xalq sənətkarlığı sahələri və əl işləridir. Muxtar respublikada xalq sənətkarlığının müxtəlif sahələri inkişaf etdirilmiş, sənətkarlar üçün lazımi şərait yaradılmışdır. Ağaciştləmə, misgərlik, papaqçılıq, dulusçuluq, xəttatlıq və digər sənət sahələri tarixən bu torpaqda böyük inkişaf yolu keçmişdir. Mədəniyyət və Turizm Nazirliyi muxtar respublika sənətkarları ilə müqavilələr bağlayaraq suvenirlərin və hədiyyəlik xatirə əşyalarının hazırlanması və satışını təşkil etmişdir. Ötən dövrdə nazirliyin "Tətbiqi sənət və rəsm əsərləri, tarix və mədəniyyətimizlə bağlı müxtəlif növ çap məhsullarının satış mərkəzi"ndə 5460 manatlıq 410 əl işi satılmışdır. "Naxçıvan Biznes Mərkəzi" MMC tərəfindən isə sərgi-satış məqsədilə 192 adda 6639 manat dəyərində əl işi və sənət əsəri qəbul edilmiş, 77 adda 5663 manat dəyərində əl işlərinin satışı həyata keçirilmişdir.

Müşavirədə gənclərin tarixi-mədəni irsimizə hörmət ruhunda böyüdülməsi əsas vəzifə kimi müəyyənləşdirilmişdir. Mədəniyyət və Turizm Nazirliyi Gənclər və İdman Nazirliyi və Gənclər Fondu ilə birlikdə "Naxçıvanı tanıyaq" devizi altında gənclərin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə, Duzdağ Fizioterapiya Mərkəzinə, Şahbuz Dövlət Təbiət Qoruğuna və Batabat Astrofizika Rəsədxanasına, Əlincəqalaya, Ordubad rayonu ərazisindəki muzeylərə və tarixi abidələrə ekskursiyalarını təşkil etmişdir. Bundan başqa, Təhsil Nazirliyi tərəfindən sınaq imtahanlarında yüksək nəticə göstərmiş 315 şagirdin, 45 sağlamlıq imkanları məhdud və 45 aztəminatlı ailələrin uşaqlarının Ağbulaq İstirahət Mərkəzinə gəzintiləri təşkil olunmuşdur. Həmçinin yay tətili dövründə gənclərin, o cümlədən idmançıların və Heydər Əliyev adına Hərbi Lisey kursantlarının Ağbulaq İstirahət Mərkəzində istirahətləri, ali, orta ixtisas və peşə təhsili müəssisələrinin tələbələrinin, Güləş, Boks, Basketbol, Şahmat, Futbol, Yüngül Atletika, Karate-do, Voleybol, Şərq Döyüşü Sənəti, Paralimpiya, Atıcılıq, Hava və Ekstremal İdman Növləri federasiyalarının idmançılarının muzeylərə gəzintiləri təşkil olunmuşdur.

Hesabat dövründə Mədəniyyət və Turizm Nazirliyi və Nəqliyyat Nazirliyi tərəfindən muxtar respublikada taksi fəaliyyəti göstərən sürücülərin muzeylərdə seminar-məlumatlandırma işi davam etdirilmiş, sürücülər qrup şəklində muzeylərdə olmuş və maarifləndirilmişlər. Taksilərə muxtar respublikanın turizm yerləri, muzeyləri və milli mədəniyyət nümunələrini özündə əks etdirən turist xəritələri və bukletlər yerləşdirilmişdir. Ötən dövr ərzində turizm obyektlərinin, eləcə də otel və mehmanxana işçilərinin xidmət mədəniyyətinin yüksəldilməsi və onların maarifləndirilməsi işi də diqqətdə saxlanılmış, taksi sürücülərinə ikigünlük seminar-müşavirə keçirilmişdir.





Turizmin inkişafında əsas məsələlərdən biri də bu sahədə maarifləndirmə işlərinin aparılmasıdır. Müşavirədə bu məsələ ilə bağlı müvafiq tapşırıq verilmişdir. Ötən dövrdə İqtisadiyyat Nazirliyi və Mədəniyyət və Turizm Nazirliyi "Naxçıvan Biznes Mərkəzi" MMC-də iaşə və mehmanxana obyektlərində fəaliyyət göstərən işçilərə xidmət mədəniyyəti ilə bağlı maarifləndirici seminar keçirmişdir. Eyni zamanda İran İslam Respublikasının Qərbi və Şərqi Azərbaycan vilayətlərinin iş adamlarının muxtar respublikaya səfəri çərçivəsində Naxçıvan Biznes Mərkəzində biznes forumlar təşkil olunmuş, turizm sahəsində əməkdaşlıq imkanları müzakirə edilmişdir. İyulun 15-də Bakı şəhərində keçirilmiş "Azərbaycan-Belarus Biznes Forumu"nda, sentyabrın 15-də "Azərbaycan-İran Biznes Forumu"nda muxtar respublikanın turizm imkanlarının təbliği ilə bağlı müvafiq materiallar iştirakçılara təqdim edilmişdir. Şahbuz rayonunun Batabat ərazisində perspektivdə çoxfunksiyalı turizm kompleksinin yaradılması üzrə Avstriya Respublikasının Ştiriya əyalətinin turizm kompleksi ilə müqayisəli layihə hazırlanmışdır.

7-9 aprel tarixlərində Bakı şəhərində keçirilən "XV Yubiley Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi"ndə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Naxçıvan stendi ilə iştirak etmişdir. Sərgi çərçivəsində Bakı şəhərində yerləşən Ekspo Mərkəzində Naxçıvan stendi qurulmuş və muxtar respublikanın turizm potensialı haqqında təbliğat materialları nümayiş etdirilmişdir.

27 sentyabr – Ümumdünya Turizm Günü münasibətilə "Ümumdünya Turizm Günü. Naxçıvanı təqdim edirik" başlığı altında keçirilən internet-aksiyada Mədəniyyət və Turizm Nazirliyi aid təşkilatlarla birlikdə 10 bölmə üzrə 1000-ə yaxın foto və 152 tanıtım videosu hazırlamışdır. Bu materiallar paylaşılmaq üçün Gənclər Fonduna, Gənclər və İdman Nazirliyinə, Naxçıvan Dövlət Televiziyasına, qəzet redaksiyalarına və informasiya agentliklərinə təqdim edilmişdir. Naxçıvan Turizm İnformasiya Mərkəzinin veb saytında "Ümumdünya Turizm Günü. Naxçıvanı təqdim edirik" başlıqlı bölmə yaradılmış, hazırlanmış materiallar burada yerləşdirilmişdir. Ümumilikdə, aksiyada 1047 nəfər və 60 qrup iştirak etmişdir. Naxçıvanın tanıtımı ilə bağlı 273 sayta məlumat göndərilmiş, 41 saytda material dərc edilmiş, 55 minə yaxın paylaşım, 265 minə yaxın bəyənmə və 851 mindən çox izləyici sayı qeydə alınmışdır.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi və Naxçıvan Turizm İnformasiya Mərkəzi tərəfindən hesabat dövrü ərzində muxtar respublikanın turizm potensialını əks etdirən videoçarxların hazırlanması və onların internetdə yerləşdirilməsinin təmin edilməsi məqsədilə bir sıra işlər görülmüşdür. Belə ki, cari ilin ötən dövründə bu mövzuda 36 veriliş, 5 film, kəndlərin sosial həyatını əks etdirən 5 teleetüd efirə təqdim edilmişdir. 10-a yaxın videoçarx hazırlanaraq televiziyada yayımlanmış və internet saytında yerləşdirilmişdir. "Günaydın" səhər proqramında isə 54 süjet efirə təqdim edilmişdir. "Xəbərlər" proqramında müxtəlif səpkili materiallar hazırlanmış, təşkil edilən tədbirlərin işıqlandırılması ilə bağlı verilən süjetlərlə birgə hazırlanan materialların sayı 90-dan artıq olmuşdur. "Şərq qapısı" qəzetində turizmin təbliği ilə bağlı 12 məqalə dərc edilmişdir.

Naxçıvan Turizm İnformasiya Mərkəzi tərəfindən muxtar respublikanın turizm potensialını əks etdirən videoçarxların internetdə yerləşdirilməsi təmin edilmiş və mərkəzin Youtube kanalına 600-dən çox məlumat-videoçarx daxil edilmişdir. Ötən dövr ərzində 84957 baxış sayı qeydə alınmışdır. Həmçinin videoçarxlar "Facebook" və "Google+" səhifələrində də yayımlanmışdır. Mərkəzin "Facebook" sosial şəbəkəsinə 82, telefon vasitəsilə 190, elektron poçt ünvanına 13 müraciət daxil olmuşdur. Mərkəzə gəlmiş 1230 xarici ölkə vətəndaşının müraciəti cavablandırılmış, qonaqların mərkəzdə olan çap materialları ilə tanışlığı təmin edilmişdir. Mərkəzin "Facebook" sosial şəbəkəsindəki səhifəsinə 323 min 672 baxış olmuş, 1000 nəfər səhifəni bəyənmişdir. Mərkəzin saytında turist qəbul edən 37 kənd evi haqqında məlumat yerləşdirilmişdir.

Azərbaycanın digər bölgələrində yerləşən turizm informasiya mərkəzlərinə və turizm şirkətlərinə, həmçinin xarici ölkələrə muxtar respublikanın turizm imkanları ilə bağlı materialların göndərilməsi də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, 27-dən çox xarici ölkəyə, Azərbaycanda fəaliyyət göstərən 150 turizm şirkətinə və bölgələrdə yerləşən 11 turizm informasiya mərkəzinə məlumatlar göndərilmiş, "Naxçıvan-Şahbuz-Batabat" və "Naxçıvan-Şahbuz-Ağbulaq" turist marşrutlarının hazırlanması ilə bağlı işlər davam etdirilmişdir. Ötən dövr ərzində muzeylərin internet saytlarının yaradılması da diqqət mərkəzində saxlanılmış, "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin saytının hazırlanması istiqamətində iş yekunlaşdırılmış, "Əlincəqala", "Parçı İmamzadəsi", "Bəhruz Kəngərli Muzeyi"nin bukletləri hazırlanaraq çap etdirilmiş, "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin, "Gülüstan" Tarix-Mədəniyyət Qoruğunun, Bəhruz Kəngərli Muzeyinin yeni bələdçi mətnləri hazırlanmışdır.

Naxçıvanda kənd yaşıl turizmi üçün geniş potensial vardır. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2016-cı ilin aprel-avqust aylarında kənd yaşıl turizmin inkişafı ilə bağlı muxtar respublikanın 19 kəndində kənd sakinləri və vətəndaşlarla görüşlər keçirilmişdir. Sərhəd-keçid məntəqələrində, eləcə də Naxçıvan Beynəlxalq Hava Limanında quraşdırılan elektron məlumat lövhələrində turistləri maraqlandıran gömrük məlumatları, Naxçıvan Muxtar Respublikasının görməli yerlərinin foto-slaydları yerləşdirilmiş, infoköşklərdə Azərbaycan, rus və ingilis dillərində gömrük qanunvericiliyi barədə məlumatlar qoyulmuşdur. Həmçinin bütün gömrük orqanlarındakı infoköşklərdə muxtar respublikanın muzeyləri, tarixi abidələri və turizm obyektləri ilə bağlı videoçarxların nümayişi həyata keçirilməkdədir.

Hesabat dövrü ərzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikaya gələn əcnəbilərin Azərbaycanın, o cümlədən muxtar respublikanın mədəniyyəti, incəsənəti, mətbəxi və turizm imkanları haqqında məlumatlandırılması, muzeylərə və tarixi yerlərə ekskursiyalarının təşkil edilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində muxtar respublikada yaşayan və işləyən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə "Azərbaycan xalqının mədəniyyəti və inkişaf tarixi","Azərbaycan xalçaları", "Azərbaycanın Dövlət Bayrağı", "Klassik Azərbaycan ədəbiyyatı", "Azərbaycan rəssamlıq məktəbi", "Naxçıvanın tarixi abidələri" mövzularında maarifləndirici tədbirlər və muzeylərə ekskursiyalar keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universiteti ilə birgə Turizm və otelçilik ixtisasının muxtar respublikanın turizm potensialı ilə bağlı hazırlanmış materiallarla təmin edilməsi, tələbələrin tarixi yerlərə və muzeylərə ekskursiyalarının təşkili istiqamətində bir sıra işlər görmüşdür. Nazirlik tərəfindən Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin Turizm və otelçilik ixtisasları muxtar respublikanın turizm potensialı ilə bağlı hazırlanmış materiallarla təmin edilmişdir. Tələbələrin Qarabağlar Memarlıq Kompleksinə, "Əlincəqala" tarixi abidəsinə ekskursiyaları təşkil edilmişdir. Naxçıvan Dövlət Universitetində "Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı və perspektivləri" mövzusunda dəyirmi masa, universitetin Turizm və otelçilik ixtisası üzrə II kurs tələbələrinin iştirakı ilə açıq dərs keçirilmişdir. "Naxçıvanı tanıyaq" layihəsi çərçivəsində universitetin turizm ixtisasında təhsil alan III kurs tələbələri muxtar respublikanın turizm potensialı olan yerlərində olmuş və videoçarx hazırlamışlar. "Naxçıvan" Universitetinin Turizm İnformasiya Mərkəzinin təşkilatçılığı ilə may ayında taksi sürücüləri üçün "Turizmə yararlı peşəkar sürücü" kursu təşkil edilmişdir. "Naxçıvan" Universitetinin Turizm İnformasiya Mərkəzinin "Gənc turçu"ları tərəfindən Əshabi-Kəhfə səyahət testi təşkil olunmuşdur. Mayın 7-də Azərbaycan Turizm və Menecment Universitetində "Azərbaycan turizmi: bu gün və sabah" mövzusunda keçirilən gənc tədqiqatçıların respublika elmi-praktik konfransında "Naxçıvan" Universitetinin Turizm və otelçilik ixtisası üzrə II kurs tələbələri, 31 may-1 iyun tarixlərində Bakı şəhərində "Regional turizmin davamlı inkişaf prioritetləri" mövzusunda keçirilən beynəlxalq konfransda universitetin Turizm İnformasiya Mərkəzi iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi tərəfindən muxtar respublikaya gələn turistlərlə bağlı aylıq statistik məlumatlar hazırlanmışdır. 2016-cı ilin yanvar-avqust aylarında muxtar respublikaya 234 min 363 turist gəlmişdir. Cari ilin yanvar-avqust aylarında turistlərin sayı bir il öncəyə nisbətdə 4,5 faiz və ya 10 min 181 nəfər artmışdır. 2016-cı ilin ilk 8 ayı ərzində Naxçıvan Muxtar Respublikasına 174 min 38 xarici ölkə vətəndaşı gəlmişdir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi tərəfindən turistlərin təhlükəsizliyinin qorunması ilə bağlı fəaliyyətin gücləndirilməsi işinə diqqət artırılmışdır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi tərəfindən isə muxtar respublikaya səfər edən turistlərin gediş-gəlişi zamanı rahatlıqlarının təmin olunması məqsədilə sərhəd nəzarət məntəqələrində rəsmiləşdirilmə prosedurları sürətləndirilmişdir.

Turizm sahibkarlığının inkişaf etdirilməsi, turizmlə məşğul olan sahibkarlara müvafiq tövsiyələrin verilməsi, biznes-planların işlənilməsi və onların tətbiqinə nail olunması məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən aprelin 7-də "Naxçıvan Biznes Mərkəzi" MMC-də sahibkarlarla görüş keçirilmiş, onlara muxtar respublikada turizm sahibkarlığının inkişaf etdirilməsi istiqamətində yaradılmış şəraitlə bağlı geniş məlumat verilmişdir. Ötən dövrdə muxtar respublikada fəaliyyət göstərən 21 iaşə obyektində göstərilən xidmətlərin keyfiyyətinin və təqdim edilən menyularda milli yeməklərin çeşidinin artırılması istiqamətində maarifləndirici monitorinqlər aparılmış, müvafiq tövsiyələr verilmişdir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişafı ilə bağlı verilən tapşırıqların icrası aid qurumlar tərəfindən davam etdirilir.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Hüseyn Cavid Poeziya Günü qeyd edilib

***Hüseyn Cavidin yenidən xalqımıza və ədəbiyyatımıza qaytarılmasında ümummilli lider Heydər Əliyevin xidmətləri əvəzsizdir. Məhz 1982-ci ildə ulu öndərin təşəbbüsü və qətiyyəti nəticəsində onun məzarı sürgün olunduğu Rusiyanın İrkutsk vilayətindən doğulub boya-başa çatdığı Naxçıvana köçürülüb. Bu fakt keçmiş Sovetlər Birliyi məkanında repressiya olunmuş şəxsə dövlət səviyyəsində göstərilmiş münasibətin yeganə cəsarətli nümunəsi idi.***



Bu fikirlər Hüseyn Cavid Poeziya Günü münasibətilə oktyabrın 24-də Naxçıvan şəhərində keçirilən tədbirdə səslləndirilib.

Tədbir iştirakçıları əvvəlcə Hüseyn Cavidin şəhərin mərkəzində ucaldılan məqbərəsini ziyarət ediblər.

Dahi şairin Naxçıvan şəhərindəki ev-muzeyində keçirilən tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova deyib ki, bu gün istər poeziyada, istərsə də dramaturgiyada orijinallığı ilə seçilən, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan şair-dramaturq Hüseyn Cavidin anadan olmasından 134 il ötür. Hüseyn Cavid 1937-ci ilin iyun ayında günahsız yerə həbs olunaraq “gizli millətçi əks-inqilabi təşkilat”da iştirakı bəhanəsi ilə səkkizillik həbs cəzasına məhkum edilib. Həmin ildən onun bütün əsərlərinə qadağa qoyulsa da, ulu öndər Heydər Əliyevin qayğısı ilə ötən əsrin 70-ci illərindən başlayaraq Cavidin əsərləri nəşr olunmağa başlayıb, rus dilində 2 cildliyi işıq üzü görüb. Azərbaycanın şəhər və rayonlarında yubiley tədbirləri təşkil olunub, əsərləri respublikamızın teatrlarında səhnəyə qoyulub, adına küçələr, məktəblər, kitabxanalar verilib.

Bildirilib ki, 1992-ci il oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin 110 illik yubileyi təntənəli şəkildə qeyd edilib, həmin dövrdə Naxçıvanda Ali Məclisin Sədri işləyən ümummilli liderimiz yubiley tədbirində Hüseyn Cavid haqqında dərin məzmunlu nitq söyləyib, böyük sənətkarın xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra məsələlərə toxunub. Görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra da Cavid şəxsiyyətinə, irsinə, ailəsinə diqqət və qayğısını əsirgəməyib. 1995-ci il iyunun 10-da ulu öndərimiz Heydər Əliyevin yanında keçirilmiş müşavirədə görkəmli şair-dramaturq Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı məsələlər geniş müzakirə olunub. Ümummilli liderin ən böyük arzularından biri 1996-cı il oktyabrın 29-da həyata keçib. Həmin gün Naxçıvanda böyük sənətkarın məqbərəsinin təntənəli açılış mərasimi olub. Bu mərasim böyük Cavidə qayğı və məhəbbətin təntənəsi, Cavidin məqbərəsi təkcə böyük sənətkara deyil, Cavidlərə ucaldılan abidə idi.

“Hüseyn Cavidin anadan olmasının 120 illiyinin qeyd olunması haqqında ulu öndərin 23 oktyabr 2002-ci il tarixli Sərəncamı sübut edir ki, görkəmli dövlət xadimi Heydər Əliyev böyük sənətkarın irsinin öyrənilməsinə həmişə diqqətlə yanaşıb”, – deyən Natəvan Qədimova vurğulayıb ki, bu sərəncam Cavid şəxsiyyətinə və yaradıcılığına tükənməz məhəbbətin bariz ifadəsidir. Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin ev-muzeyinin yaradılması, 1993-cü ildə Bakıda ucaldılan Hüseyn Cavidin abidəsi görkəmli ədibə dövlət qayğısının parlaq ifadəsidir.

Diqqətə çatdırılıb ki, ulu öndərimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin 17 aprel 2007-ci və 16 fevral 2012-ci illərdə imzaladığı Hüseyn Cavidin 125 və 130 illik yubileylərinin keçirilməsi ilə bağlı sərəncamları da sənətkara göstərilən dövlət qayğısının davamı kimi qiymətləndirilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yubileylə bağlı 2007-ci il 15 may və 2012-ci il 20 fevral tarixli sərəncamlarla təsdiq etdiyi Tədbirlər planlarına əsasən, qədim diyarımızda yubiley tədbirləri yüksək səviyyədə təşkil olunub, muxtar respublikanın ali, orta ixtisas və ümumtəhsil məktəblərində “Hüseyn Cavid dərsləri” keçilib, elmi konfranslar və simpoziumlar təşkil edilib, Naxçıvan Dövlət Musiqili Dram Teatrında Hüseyn Cavidin “Şeyx Sənan” əsəri tamaşaya hazırlanıb, “Naxçıvan” jurnalının bir nömrəsi ədibin 130 illik yubileyinə həsr olunub. Ali Məclis Sədrinin 2007-ci il 15 may tarixli Sərəncamla təsdiq etdiyi Tədbirlər Planında hər il görkəmli şair və dramaturqun anadan olduğu günün – oktyabrın 24-nün muxtar respublikamızda “Hüseyn Cavid Poeziya Günü” kimi qeyd edilməsi də öz əksini tapıb.

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyevin “Hüseyn Cavidin həyat və yaradıcılığı”, Naxçıvan Dövlət Universitetinin müəllimi, filologiya elmləri doktoru, Azərbaycan Respublikasının Əməkdar elm xadimi Hüseyn Həşimlinin “Hüseyn Cavidin poeziyası”, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işçisi Elxan Məmmədovun “Azərbaycan ədəbiyyatının söz və fikir dahisi – Hüseyn Cavid” mövzularında çıxışları olub. Çıxışlarda ulu öndər Heydər Əliyevin Cavid şəxsiyyətinə, irsinə, ailəsinə göstərdiyi qayğıdan geniş söhbət açılıb, böyük sənətkarın xatirəsinin əbədiləşdirilməsi üçün dövlət səviyyəsində görülən işlər qeyd edilib, Cavid irsinə göstərilən diqqətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq ifadə edilib.

Tədbir bədii hissə ilə davam etdirilib.

Sonda tədbir iştirakçıları Hüseyn Cavidin ev-muzeyinin ekspozisiyası ilə tanış olublar.

**Rauf ƏLİYEV**

***Düzəliş***

Qəzetin 23 oktyabr 2016-cı il tarixli sayında dərc olunan “Cavid əfəndi” şeirindəki “ac” sözləri “aç” kimi oxunmalıdır.

## AMEA Naxçıvan Bölməsi əməkdaşlarının magistrantlarla görüşü olub

***Naxçıvan Dövlət Universitetində Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin aparıcı əməkdaşları ilə universitetin magistrantlarının görüşü keçirilib.***



Ali məktəbin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov universitetdə 1997-ci ildə təməli qoyulan magistratura pilləsi üzrə təhsilin səviyyəsindən danışıb. Bildirilib ki, magistraturanın fəaliyyəti 37 kafedranı əhatə edir. Universitetdə 47 ixtisas üzrə magistratura təhsili verilir.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, ümummilli lider Heydər Əliyevin qayğısı ilə 2002-ci ildə yaradılan AMEA Naxçıvan Bölməsi Naxçıvanın mühüm elmi-tədqiqat mərkəzidir. Burada 6 elmi-tədqiqat institutu, Biokimyəvi tədqiqatlar laboratoriyası, “Nəbatat bağı”, zəngin elektron kitabxana, “Tusi” nəşriyyatı, iki seriyada nəşr olunan “Xəbərlər” jurnalı, “Axtarışlar” jurnalı, Dissertasiya Şurası fəaliyyət göstərir.

Qeyd olunub ki, bu illər ərzində bölmənin əməkdaşları tərəfindən 2 cilddə “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, “Naxçıvan tarixi atlası”, “Naxçıvan tarixi” çoxcildliyi, “Naxçıvan teatrının salnaməsi”, 3 cilddə “Naxçıvan folkloru antologiyası”, 2 cilddə Naxçıvan Muxtar Respublikasının “Qırmızı kitabı” kimi fundamental nəşrlər hazırlanıb. Akademik İsmayıl Hacıyev Naxçıvan Dövlət Universitetinin AMEA Naxçıvan Bölməsi üçün fundamental kadr potensialı rolu oynadığını vurğulayıb, magistrantlara boş iş yerləri haqqında məlumat verib.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov da magistrantlara yaradıcı elmi tədqiqatla məşğul olmağı tövsiyə edib, elmi nailiyyətlər qazanmağın sonsuz maraq və sevgi, elmi fədakarlıq nəticəsində mümkünlüyünü vurğulayıb.

**Mehriban SULTAN**

***Avqust ayının 25-də Rusiyanın Sankt-Peterburq şəhərində “Metro” qəzeti hamını heyrətə gətirəcək bir xəbər yaydı: 1947-ci ildə, o vaxtlar Leninqrad adlanan şəhərdə, Moskva prospektində görkəmli rus yazıçısı və filosofu Nikolay Çernışevskiyə heykəl qoyulub. Lakin o vaxtdan indiyədək heykəl, bir dəfə də olsun, təmir edilməyib. Bu ilin avqust ayında heykəl təmir olunmaq üçün götürüləndə inşaatçılar qəbirüstü sinə daşlarına rast gəlirlər. Bunlar hamısı heykəlin ətrafına düzülübmüş. İnşaatçılar əlüstü şəhər Heykəltəraşlıq Muzeyinə xəbər verirlər, çünki heykəlin təmirə aparılmasını bu muzey sifariş etmişdi. Sinə daşları köhnə idi. Ancaq muzey işçiləri bir mərmər sinədaşının üzərində Naxçıvanski familiyasını və ölüm tarixini – 1912-ci ili oxuya biliblər. Onlar ehtimal ediblər ki, bu sinədaşı məşhur general Hüseyn xan Naxçıvanskinin oğlu Nikolayın məzarı üstünə qoyulubmuş.***

*Axtarışlar, tapıntılar*

## Nikolay xan Naxçıvanski haqqında



Həmin muzeyin direktor müavini Nadejda Yefremovanın məlumatından aydın oldu ki, tapılan sinə daşlarını Heykəltəraşlıq Muzeyinə aparacaqlar. Onların yerinə isə oxşar qranitdən hazırlanan sinə daşları qoyulacaq. Daha sonra o deyirdi: “Biz 1913-cü ildə biblioqraf Vladimir Skitov tərəfindən nəşr edilmiş “Peterburq nekropollarını (sərdabələrini)” diqqətlə öyrənsək də ətraflı məlumat əldə edə bilmədik. Biz bunu öyrənməyə çalışacağıq, çox zəhmətli işdir”.

Muzeyin əməkdaşlarının sözlərinə görə, Peterburqda sinə daşlarından istifadə olunması tez-tez rast gəlinmir. Heykəltəraşlıq Muzeyinin direktor müavini jurnalistlərə bildirib ki, biz bu tapıntılara çox həssaslıqla yanaşacağıq. Heykəli isə sentyabrın ortalarında öz yerinə qaytaracağıq. Həmin günlərdə Azərbaycanın da internet saytları bu xəbəri paylaşdılar. Hamını bu məsələ çox maraqlandırırdı. Aşkardır ki, hansısa dağıdılmış qəbiristanlıqdan Hüseyn xanın oğlunun qəbirdaşı buraya gətirilib.

Biz oxucuların marağını nəzərə alaraq Nikolay xanın həyatı haqqında məlumat vermək istədik.

Rusiya Dövlət Tarix Arxivində saray qvardiyasının süvari polkunun korneti Xan Nikolay Naxçıvanskinin xidmət siyahısı saxlanılır. Həmin arxiv sənədlərindən məlum olur ki, Xan Nikolay (sənədlərdə belə yazılıb – müəllif) 6 avqust 1891-ci ildə Sankt-Peterburqda məşhur sərkərdə Hüseyn xan Naxçıvanski – Kəngərlinin ailəsində doğulub. Əvvəllər yazdığımız kimi, Hüseyn xan ömrünün sonuna kimi dinini dəyişməyib, müsəlman olaraq qalıb, sənədlərdə də var. O, 1889-cu ildə şair-tərcüməçi və naşir N.B.Herbelin (1827-1883) qızı Sofya Nikolayevna Herbel (Sankt-Peterburq, 1864 – Beyrut, 1941) ilə ailə qurub. Onların bu nikahdan iki oğulları və bir qızları olub. Həmin illərin dini qanunlarına görə, uşaqlar atanın dinində yazıla bilməzdi. Bu səbəbdən onlar sənədlərdə analarının dinlərində yazılıb. Məsləhət görüblər ki, Hüseyn xan dinini dəyişsin. Amma o, bundan qəti imtina edib. Hətta bəzi sənədlərdə Herbelin lüteran olduğu haqda da məlumatlar var. Buna görə də bu yazının müəllifi 2004-cü ildə həmyerlimiz, fəxrimiz, məşhur sərkərdə Hüseyn xan Naxçıvanskinin məzarını hətta lüteran qəbiristanlığında da axtarıb. Qeyd edim ki, mən 10 gün müddətində Sankt-Peterburqun qəbiristanlıqlarını bələdçi ilə axtarmışam. O vaxt mənə dedilər ki, köhnə lüteran qəbiristanlığı dağıdılıb. Görünür, həyatdan çox cavan getmiş Xan Nikolay o qəbiristanlıqda dəfn edilibmiş. Son sözü axtarışlar deyəcək.

Xan Nikolay çar sarayına məxsus paj korpusunda oxuyub. 29 avqust 1904-cü ildə çar sarayının paj korpusuna seçilib. Təlimata əsasən, 9 sentyabr 1904-cü ildə paj korpusuna qəbul edilib.

1 sentyabr 1909-cu ildə paj korpusunun xüsusi kiçik sinfinə dəyişdirilib. 1 sentyabr 1910-cu ildə isə böyük xüsusi sinfə dəyişdirilən Nikolay xan 31 oktyabr 1910-cu ildə artıq kamer-pay idi. Nikolay xan paj korpusunu birinci dərəcə ilə bitirib və 6 avqust 1911-ci ildən saray qvardiyasının kiçik zabiti-korneti kimi hərbi xidmətə başlayıb. Bir vaxtlar atasının da xidmət etdiyi 3-cü eskadronda xidmət edib. Ona təyin edilən maaş və əlavə artım da (il üçün) göstərilib: 720 rubl və əlavə 180 rubl.

Qeyd edək ki, o, korpusda təhsil alarkən həmyaşıdlarından sağlam qaməti və dərin zəkası ilə fərqlənib. Yazılan xatirələrdən məlum olur ki, cıdır meydançalarında əsl süvari kimi at sürürmüş. Onu ötə biləcək və döyüşəcək tay-tuşları oxuduğu qrupda yox imiş.

Hətta kornet kimi fəaliyyətə başlayanda attestasiya sənədinə yazılıb: “Zəkalıdır. Fiziki cəhətdən aladır. Xidmətdə yaxşıdır. Əxlaqına söz ola bilməz. Gələnən nəticə budur ki, ondan əla zabit olacaq”.

Amma, təəssüflər olsun ki, gənc hərbçi faciəli və sirli, mübhəmalı şəkildə 2 fevral 1912-ci ildə Sankt-Peterburqda dünyasını dəyişib. Həmin il mart ayının 11-də onun adını hərbçilərin siyahısından siliblər.

Hüseyn xan bir ata kimi böyük oğlunun faciəli ölümünə dərindən kədərlənib. O, bir vaxtlar qardaşları Rəhim xana və Cəfərqulu xana məsləhət görmüşdü ki, çardan icazə alacaq, onlar Araz çayından Qaraçuğun və Böyükdüzün çöllərinə su çəkdirsinlər. Hətta vəsaitin xeyli hissəsinin özünün ödəməsini də yazırdı... Qardaşlarının da bu işə qoşulmalarını istəyirdi.

Amma çox sevdiyi oğlunun ölümündən sonra ruhdan düşən Hüseyn xan bu müqəddəs arzusunun dalınca gedə bilmir. Elə bu arada onu Riqaya hərbi xidmətə dəyişirlər. Onun özü istəyirdi ki, bir müddət kədər dolu mühitindən uzaqda olsun. Amma dostu knyaz V.N.Orlova 17 aprel 1912-ci ildə yazdığı məktubdan görünür ki, göndərildiyi işə ürəyincə deyilmiş. Hüseyn xan yazır: “Əziz dost, görürsənmi, nə döyüş xidmətləri, nə sülh zamanının xidmətləri, nə də Georgi Xaçı (Rusiyanın ən yüksək hərbi ordeni – müəllif) adamı intriqalardan uzaqlaşdırmır. Taleyin zərbələri bir-birinin ardınca məni izləyir...”

Xan Nikolay Naxçıvanski cəmi 21 il yaşasa da, atası məşhur süvari general Hüseyn xana layiqli oğul olub. Atası onu Naxçıvana da gətirmişdi ki, qoy ulu əcdadlarının yurdunu görsün, unutmasın buralı olduğunu. Xan Nikolayın qəflətən ölümünün səbəbi çar rəsmiləri tərəfindən çox gizlin saxlanılıb. Çünki saray qvardiyasının qanunu belə idi.

Xan Nikolay Naxçıvan Kəngərlilərinə məxsus döyüş qabiliyyəti və bacarığı ilə Rusiya hərb tarixində iz qoymuşdur.

**Musa QULİYEV**
*tarix üzrə fəlsəfə doktoru*



# Təmizlik Naxçıvanın iman yoludur

***Muxtar respublikamızın artıq həyat ritminə çevrilən tikinti-quruculuq və təmir-bərpa işləri Naxçıvanı müasirliyə qovuşdurub. Qısa zaman kəsiyində on illərə bərabər inkişaf yolu keçən, tərəqqiyə qovuşan Naxçıvan bu gün, sözün həqiqi mənasında, tanınmaz dərəcədə dəyişib. Elə ona görədir ki, buraya yolu düşənlər şahidi olduqları dəyişikliklərdən təəccüblərini gizlədə bilmirlər. Naxçıvan şəhərini hər kəs üçün cəlbedici edən amillərdən biri də şəhərin abadlığı və təmizliyidir.***

Son illərdə dinindən, dilindən, cəmiyyətdə tutduğu mövqedən və fəaliyyətindən asılı olmayaraq Naxçıvana gələn insanların birmənalı olaraq işlətdiyi ifadələrdən biri də budur: "Naxçıvan çox təmiz şəhərdir". Bu fikirləri peşə fəaliyyətindən dolayı həm yerli, həm də xarici qonaqların dilindən çox eşitmişik. Bu hal o zaman baş verir ki, gələn qonağın şəhərimizi digər yerlərlə müqayisə etmək imkanı olur və nəticədə, Naxçıvan digərlərindən əsaslı şəkildə fərqlənir.

Mövzuya bir az dərindən yanaşsaq görərik ki, təmizlik məsələsi heç də sıradan bir məsələ deyil. Əgər görülən işlərin hər birinin sonunda insan amili dayanırsa, demək ki, abad və təmiz mühitdə yaşamaq da insanların haqqıdır. Yetər ki, bu haqqı tanıyan və tanıdan bir regionda yaşayasan. Məsələnin digər tərəfi ondan ibarətdir ki, Naxçıvanda abadlıq və təmizliyin ən yüksək səviyyədə qorunmasına heç də asanlıqla nail olunmayıb. Bunun üçün hədəflər və bu hədəflərə doğru ümumxalq yanaşması ortaya qoyulub. Ən əsası isə təmizliyin təmin olunması Naxçıvanda hərtərəfli fəaliyyətin mühüm tərkib hissəsi sayılıb. Harada bir quruculuq tədbiri aparılıbsa, ətrafında abadlıq işləri görülüb, ağaclar əkilib, yaşıllıqlar salınıb, aidiyyəti orqanlar tərəfindən həmin ərazinin təmizliyi diqqət mərkəzində saxlanılıb. Hətta quruculuq işlərinin aparılmadığı azsaylı ərazilərdə belə, ətraf mühitin təmizliyi qorunub, elliklə bu işə əmək sərf edilib. Elə bu genişmiqyaslı tədbirlərin nəticəsidir ki, indi muxtar respublikanın hər bir bölgəsində, ən ucqar dağ kəndlərində belə, məişət tullantıları qutularına rast gəlmək mümkündür. Qeyd edək ki, məişət tullantılarının toplanması, çeşidlənməsi və məhv edilməsi heç də həlli asan məsələ deyil. Hətta inkişaf etmiş ölkələrdə də tullantılarla bağlı ortaya çıxan problemlər artıq qlobal xarakter daşımağa başlayıb. Çünki söhbət ətraf mühitin, ekologiyanın mühafizəsindən gedir. Uzağa getməyək, təkcə 2015-ci ildə Naxçıvan şəhərindən daşınan məişət tullantıları həcminin çəkisi 4674,7 ton təşkil edib. Bu da aylıq 390 ton, gündəlik isə 13 tona yaxın məişət tullantısı deməkdir. Nəzərə alaq ki, söhbət yalnız məişət tullantılarından gedir. Dünyada günlük 15-20 ton məişət tullantılarını o qədər də hiss etdirmədən "udan" şəhərlər var.

Onu da vurğulamaq lazımdır ki, Naxçıvanın təmiz şəhər kimi gələcəkdə də qorunması hazırda həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsini təşkil edir. Belə ki, muxtar respublikada məişət tullantılarının zərərsizləşdirilməsi məqsədilə tullantı poliqonlarının yaradılması hazırda icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda öz əksini tapıb. Bu sahədə icraçı orqan – Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən qəzetimizə verilən məlumatda bildirilir: "Naxçıvan Muxtar Respublikasında məişət tullantılarının çeşidlənməsi, utilizasiya edilməsi üçün tullantı emalı zavodunun tikilməsi ilə əlaqədar ilkin layihələşdirilmə sənədlərinin hazırlanması istiqamətində işlər davam etdirilir. Naxçıvan şəhərinin şimal-qərb istiqamətində, Naxçıvan-Sədərək magistral avtomobil yolunun sol hissəsində bərk məişət tullantıları emalı zavodunun tikintisinin aparılması üçün yer seçilmiş, ərazi ekoloji ekspertizadan keçirilmiş və ərazinin ekoloji qiymətləndirilməsinə dair rəy verilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikasının Şərur, Sədərək, Kəngərli, Babək, Şahbuz, Culfa və Ordubad rayonlarında bərk məişət tullantılarının formalaşması üçün məntəqələrin tikilməsi məqsədilə yerlər seçilmiş və həmin ərazilər aidiyyəti orqanlar tərəfindən xəritələşdirilmişdir. Cari ildə bu istiqamətdə mərhələli olaraq işlər davam etdirilir".

Yəqin ki, böyük İslam Peyğəmbərinin (s.ə.s.) hədislərində "Təmizlik imandandır" deyimini indiyədək eşitməyən olmayıb. Rəvayətə görə, imanın praktik göstəricilərindən biri məhz insanın özü, geyimi, evi və yaşadığı mühitin təmizliyidir. İslam dinində insanın fərdi, ictimai təmizlik və gigiyenasına aid çoxlu sayda qaydalar mövcuddur. Müsəlman təmiz, pak olmalıdır. "Qurani-Kərim"də buyurulur: "Allah... təmiz, pak olanları sevər!" ("Bəqərə" surəsi, 222) Peyğəmbərimizin hədislərində təmizlik həm gözəllik, həm ibadət, həm də sağlamlıq üçün çox önəmli amil kimi dəyərləndirilir. Təmizlik insanın təbiətlə ortaq xüsusiyyətlərindən biridir. Yaradılışdan təbiət də, insan da pak və təmiz yaradılıb. Əgər yaşadığın mühitdə təmizliyi qorusan, təbiət də bunun əvəzini sənə sağlamlıq bəxş etməklə, gümrah olmaqla ödəyəcək. Məgər yeri süpürən küləkdən, tozu yatıran yağışdan təmizlik dərsi almaq çoxmu çətindir? Sevindirici haldır ki, bu gün Naxçıvan öz təmizliyi və abadlığı ilə çox şəhərlərə nümunədir. "Təmizlik imandandır!" ifadəsi bu gün Naxçıvanın real həyatında öz əksini tapıb. Bu mənada, təmizlik həm də Naxçıvanın iman yoludur.

**Səbuhi HƏSƏNOV**

## "Naxçıvan" Universitetinin əməkdaşları təhsil sərgisində iştirak ediblər

Bu günlərdə "Naxçıvan" Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları Rəcəb Cəfərli və Nicat Yaqubov Türkiyə Respublikasının İstanbul və İzmir şəhərlərində təşkil olunmuş təhsil sərgilərində iştirak ediblər. Türkiyənin "Akare" təhsil sərgiləri firmasının təşkilatçılığı ilə keçirilən sərgiyə Türkiyədəki konsulluqların, dünyanın bir çox ölkəsindən olan universitet və institutların nümayəndələri, eləcə də Amerika və Avstriyadan gəlmiş bir sıra qonaqlar qatılıblar. Sərgidə "Naxçıvan" Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli təmsil etdiyi ali təhsil ocağının bakalavr, magistr, doktorantura proqramları, ödənişləri və yataqxanası haqqında məlumat verib.

Tədbirdə universitetin tanıtımı üçün hazırlanmış videoçarx və universitet haqqında geniş məlumatı əks etdirən slayd nümayiş etdirilib.

Sonda tədbir iştirakçılarının sualları ətraflı cavablandırılıb, universitetin tanıtımı üçün hazırlanmış materiallar sərgilənib. Sərgidə "Akademiya" xaricdə təhsil agentliyinin rəhbəri Esma Bunjaku ilə görüş keçirilib və universitetə Kosovadan tələbələrin cəlbi və bu istiqamətdə agentliklə əməkdaşlıq imkanları barəsində fikir mübadiləsi aparılıb. Onu da bildirək ki, Türkiyənin "ATV" kanalında sərgi ilə əlaqədar universitet haqqında məlumat yayımlanıb.

**Nuray ƏSGƏROVA**

*İdman*

## Basketbolçuların muxtar respublika çempionatında ilk tura yekun vurulub

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi basketbol üzrə muxtar respublika çempionatının yüksək dəstə və I dəstə oyunlarının ilk turuna yekun vurulub.***

Naxçıvan Muxtar Respublika çempionatının yüksək dəstəsinin ilk turu meydan sahiblərinin qələbələri ilə yekunlaşıb. Çempionatın favoriti kimi "Naxçıvan" komandası ilk turda şərurlu həmkarlarını 76:30 hesabı ilə məğlub edib. "Şərur" komandası "Culfa" komandasının qonağı olub və meydanı yenə məğlub tərk edib – 55:28. Ordubad basketbolçuları isə "Babək" komandasından üstün olublar – 34:16.

I dəstənin oyunlarına isə "Sədərək" komandası yaxşı başlayıb. İlk turda doğma arenada "Naxçıvan" Universiteti komandasını 5 top fərqi ilə (28:23) məğlub edən sədərəklilər eyni uğuru səfərdə oynadıqları "Kəngərli" komandasından da əldə ediblər. Onlar "Kəngərli" komandasını 18:11 hesabı ilə məğlub edərək liderliyi ələ alıblar. Bu turda "Şahbuz" komandası "Lokomotiv"i qəbul edib və meydanı 49:35 hesablı qələbə ilə tərk edib.

## Şərurda yoldaşlıq görüşü

***Şərur Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin təşkilatçılığı ilə yeniyetmələr arasında sərbəst güləş üzrə qruplararası yoldaşlıq görüşü keçirilib.***

Tədbirdə 9 çəki dərəcəsində 50-dən artıq yeniyetmə idmançı iştirak edib. Güləşçilər 23, 26, 29, 32, 35, 38, 47, 54, 63 kiloqram çəki dərəcələrində birincilik uğrunda mübarizə aparıblar. Yekun nəticəyə əsasən, Bəhman Paşayev, Ayxan Abbasov, Əmrə Ağayev, Fuad Əliyev, Məhərrəm Səfərov, Murad Hətəmli, Ayxan Kazımov, Hüseyn Bayramov və Namiq Novruzov müvafiq olaraq öz çəki dərəcələrində birinci yerə layiq görülüblər.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

## Futbol üzrə muxtar respublika çempionatında yeni mövsümə start verilib

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi futbol üzrə XV Naxçıvan Muxtar Respublika çempionatının yeni mövsümünə start verilib.***

Futbol Federasiyasının sədr müavini Hafiz Əliyev yeni mövsüm öncəsi bizimlə söhbətində vurğuladı ki, ötən mövsüm olduğu kimi, cari ildə də reqlamentə əsasən, komandalar meydana federasiya tərəfindən təsdiq edilmiş qaydada – yəni limit əsasında çıxırlar. Bu limiti qoymaqda məqsəd gənc istedadlı futbolçuları üzə çıxarmaq, onların oyun təcrübəsini artırmaqdır: "Federasiyanın məqsədi muxtar respublikada futbolun kütləviliyinə nail olmaq, yeniyetmə və gəncləri bu növə cəlb etməkdir. Artıq 15-ci futbol mövsümünə start vermişik. Hər zaman olduğu kimi, cari çempionatda da 10 komanda dairəvi sistem üzrə mübarizə aparır. 18 turdan ibarət olan çempionatda komandalar federasiya tərəfindən təyin edilmiş limit əsasında meydana çıxırlar".

Ötən mövsümlə müqayisədə cari çempionatda komandaların bir qədər ciddi mübarizə aparmaları diqqətdən yayınmır. Artıq çempionatın ilk 3 turu geridə qalıb. Son iki mövsümün çempionu "Araz-Naxçıvan" cari ilə də iddialı başlayıb. "Qırmızı-ağlar" ilk turda "DİN-Darıdağ" futbol komandasının qonağı olub. Gərgin keçən görüş qonaqların 3:0 hesablı qələbəsi ilə başa çatıb. Növbəti turda onlar "Arpaçay" komandası ilə üz-üzə gəliblər. Şərurda keçirilən oyun "qırmızı-ağlar"ın 3:2 hesablı qələbəsi ilə yekunlaşıb. Doğma arenada keçiriləcək olan görüşdə isə Sədərək təmsilçisi oyuna gəlməyib və onlara texniki məğlubiyyət verilib. Ümumiyyətlə, "Sədərək" komandasında belə hallar adətə çevrilib. Üçüncü görüşdən maksimum xal toplayan "Araz-Naxçıvan" şəriksiz liderdir.

İlk turda gözlənilmədən Sədərək futbolçularına məğlub olan (3:4) "Batabat" komandası digər iki görüşü qələbə ilə başa vuraraq hazırda top fərqinə görə turnir cədvəlində ikinci pillədə qərarlaşıb. 6 xal toplayan Naxçıvan Dövlət Universitetinin komandası, "DİN-Darıdağ" və "Kəngərli" komandaları şahbuzlu həmkarlarını izləyirlər. Bu siyahıda Kəngərli təmsilçisinin olması bir qədər maraqlıdır. Ötən mövsüm autsayderlər siyahısında yer alan Kəngərli futbolçularının cari mövsümdə uğurlu çıxışları diqqəti çəkir. İlk turda NDU komandasına məğlub olsalar da, "Dübəndi" və "Əlincə" komandalarına qalib gəliblər.

Cari mövsümdə hələ ki xala həsrət qalan iki komanda var. Keçirdikləri hər 3 görüşdə məğlub olan "Babək" və "Dübəndi" komandaları turnir cədvəlinin son iki pilləsində özlərinə yer tapıblar.

Bombardirlər cədvəlinə isə "Araz-Naxçıvan"ın hücumçusu Tağı Seyidov başçılıq edir. Onun aktivində 3 qol var.

Qeyd edək ki, növbəti – 4-cü turun oyunlarına bu həftə start veriləcək.

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 3 | 3 | 0 | 0 | 9-2 | 9 |
| 2. | Batabat | 3 | 2 | 0 | 1 | 8-5 | 6 |
| 3. | NDU | 2 | 2 | 0 | 0 | 4-1 | 6 |
| 4. | DİN-Darıdağ | 3 | 2 | 0 | 1 | 9-8 | 6 |
| 5. | Kəngərli | 3 | 2 | 0 | 1 | 5-5 | 6 |
| 6. | Arpaçay | 2 | 1 | 0 | 1 | 6-4 | 3 |
| 7. | Əlincə | 3 | 1 | 0 | 2 | 6-6 | 3 |
| 8. | Sədərək | 3 | 1 | 0 | 2 | 5-8 | 3 |
| 9. | Dübəndi | 3 | 0 | 0 | 3 | 5-10 | 0 |
| 10. | Babək | 3 | 0 | 0 | 3 | 2-10 | 0 |

***Qeyd:*** S – sıra, O – oyun, Q – qələbə, H – heç-heçə, M – məğlubiyyət, T/F – top fərqi, X – xal.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 798